Bakı şəhəri C. Cabbarlı meydanında yeraltı keçiddə yerləşən ticarət mərkəzində fəaliyyət göstərən sahibkarlar tərəfindən

**ŞİKAYƏT ƏRİZƏSİ**

Məlumat üçün bildiririk ki, Bakı şəhəri, C.Cabbarlı meydanında yeraltı keçiddə olan ticarət obyektində yerləşən ayrı-ayrı mağazalarda 1988-ci ildən bu günə qədər sahibkarlıq fəaliyyəti göstəririk. Azərbaycan Respublikası Prezidentinin "İcarəyə verilmiş dövlət əmlakından səmərəli istifadə olunması tədbirləri haqqında" 06.09.1997-cı il tarixli 629 saylı fərmanının tələblərinə əsasən 1997-ci ilin sentyabr ayından 2001-ci ilin mart ayına qədər fəaliyyətimizi Azərbaycan Respublikası Dövlət Əmlak Komitəsi (Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi) ilə bağlıdığımız icarə müqavilələri əsasında davam etdirdik. 2001-ci ilin mart ayından 2009-cu ilin yayına qədər yəni 8 il təmir bəhanəsi altında keçid bağlı qalır.

Azərbaycan Respublikasının Prezidentinin 08.07.2008-ci il tarixli 2930 saylı sərəncamı ilə təsdiq edilmiş "Bakı şəhəri nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2008-2013-cü illər üçün əlavə tədbirlər planı"nın 2.15-ci sətrinə əsasən Bakı şəhərinin avtomobil yollarında, prospektlərində və mövcud piyada keçidlərində (C.Cabbarlı meydanındakı yeraltı keçid də daxil olmaqla) bərpa və yenidənqurma işlərinin aparılması məqsədi üçün Nəqliyyat Nazirliyinin balansına verilir və həmin Nazirlik də təmir və bərpa işlərini öz növbəsində "Azəryolservis" ASC-yə tapşırır. "Azəryolservis" ASC də dövlət vəsaiti hesabına sözügedən keçiddə bizim də mağazalarımız daxil olmaqla, 40-a yaxın mağaza sökülərək piyadaların gedişi üçün nəzərdə tutulan sahənin zəbt olunması hesabına, hər biri 34 kv olan 80 mağza tikib düzəltdirdi. Hələ təmir başlanan vaxt N.N-ninartıq balansında olan həmin yer sabiq N.N. Ziya Məmmədovun daxili əmri ilə oğlu Anar Məmmədovun qeydiyyatı offşor ölkədə (Vircinia adalarında) olan "Royal İSTEYT" MMC-nin istifadəsinə verilir və Azəryolservis ASC tərəfindən yenidən quraşadırılacaq mağazalar üşün pul ödənilməsi Royal İSTEYT tərəfindən bizdən tələb edilməyə başladı. Uzun illər orada çalışdığımıza və hələ Sovetlər ittifaqı zamanı pul verib aldığımız obyektlərin bizə qaytarılmasını tələb etdiyimizə görə, Anar Məmmədov həmin pulu bizdən başqa yolla almaq üçün hiyləyə əl atdı. Anar Məmmədov oraya təhkim etdiyi adamların vasitəsilə bizə bildirdi ki, təmir üçün dövlətin "AzəryolServisə" ayırdığı pul kifayət etmədiyindən təmir işlərini dayandırmaq məcburiyyətindədirlər. Təmir işlərinin tez zamanda başa çatması və bizim tezliklə ticarət fəaliyyətimizə başlanılması üçün bizdən sahəsi 34 km olan hər bir mağazanın tikinti və təmiri üçün 40-50 min manat (və yaxud 50-60 min ABŞ dolları məbləğində) pul tələb etdilər. Bunun müqabilində isə, gələcəkdə həmin mağazaların özəlləşdirilməsinə icazə verilərkən verdiyimiz pulun əvəzinə həmin mağazaları bizim adımıza özəlləşdirəcəklərini və bizə dövlət reyestrindən çıxarış verəcəkləri vədini verdilər. Biz onların sözünə inanaraq Elton Məmmədova və Abdullayev Elnur Nazim oğluna həmin şərtlərə hər mağaza üçün (mağazaların keçiddə yerindən asılı olaraq) 40-50 min manat (və yaxud o dövrün rəsmi valyuta məzənnəsi ilə 50-60 min ABŞ dolları məbləğində) pul verdik.

Bundan sonra, hər birimiz "Royal İSTEYT" MMC ilə 2009-cu ilin fevral ayında aylıq icarə haqqı 800 (səkkiz yüz) manat olmaqla **MÜDDƏTSİZ** icarə müqaviləsi bağladıq.

Sonradan dəfələrlə bizim mənafelərimizə ciddi ziyan vuran və hüquqlarımızı əhəmiyyətli dərəcədə məhdudlaşdıran, bizi faktiki olaraq İcarəyə verəndən tam asılı vəziyyətə salan, müqavilələrin təməl prinsiplərinə zidd şərtlərlə yeni icarə müqavilələr bağlamağa məcbur edildik. Belə ki, 2013-cü ildə 5 il müddətinə, aylıq icarə haqqı 1500 manat olmuş, sonra 2017-ci ilin yanvar ayından aylıq icarə haqqı 2500 manat olmaqla yeni icarə müqaviləsi imzalamalı olduq. Nəhayət, 2019-cu ilin sentyabr ayında əvvəlki icarə müqaviləsinin müddətinin bitməsindən xeyli əvvəl, aylıq icarə haqqı 3500-4000 manat olmaqla və icarəyə verənin təşəbbüsü ilə istənilən vaxt ləğv edilə bilmək şərti ilə icarə müqaviləsi bağlanıldı. Bu müqavilə ümumiyyətlə icarə müqaviləsinin məzmun və formasına qanunvericilik tərəfindən müəyyən edilmiş tələblərin kobud şəkildə pozulması ilə edilmişdir. Belə ki, həmin icarə müqaviləsində mülkiyyət sahibi olan icarəyə verən tərəf göstərilməmiş, kim tərəfindən, hansı müddətə və səlahiyyətlə verilməsi bəlli olmayan 16.09.2019-cu il tarixli etibarnamə ilə heç kəsin tanımadığı şəxsiyyət vəsiqəsi AZE№18589525 olan Məlikov Yavər Yaşar oğlu müqaviləni imzalamış və icarəyə verənin yaxud notarial kontorunun möhürü ilə təsdiq edilməmişdir.